**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI**

| | | |
|---|---|---|
| **Bakı şəhəri** | **№344/6** | **31 may 2022-ci il** |

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında
Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin əsasnaməsinin
və 2022-ci il üzrə iş planının təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında yeni Komitələrin və Komissiyanın yaradılması və tərkiblərinin təsdiq edilməsi barədə" 2022-ci il 15 fevral tarixli 340/2 nömrəli qərarının icrasını təmin etmək məqsədi ilə Palatanın Şurası yanında Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin əsasnaməsinin və 2022-ci il üzrə iş planının layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının Şurası yanında Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin əsasnaməsi və 2022-ci il üzrə iş planı təsdiq edilsin (komitənin əsasnaməsi və iş planı əlavə olunur).
2. Auditorlar Palatasının Şurası yanında Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitəyə (E.Qurbanov) tapşırılsın ki, rəhbərlik etdiyi komitənin əsasnaməsindən irəli gələn vəzifələrin və iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icrasını təmin etsin.
3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bu qərarın, Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin əsasnaməsinin və 2022-ci il üzrə iş planının mətnlərinin Palatanın internet səhifəsinin müvafiq bölmələrində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**